**Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımı ilə bağlı dinləmələr davam etdirilmişdir**

Türkiyə Böyük Millət Məclisində (TBMM) Xocalı soyqırımı ilə bağlı dinləmələr fevralın 26-da davam etdirilmişdir.

TBMM-in sədr müavini Nevzat Pakdilin sədrliyi ilə keçirilən geniş iclasda çıxış edən Cümhuriyyət Xalq Partiyasının İzmirdən olan millət vəkili Canan Arıtman demişdir ki, 1992-ci il fevralın 26-da Xocalıda törədilmiş qətliam Azərbaycanın, bütün türk dünyasının, bəşəriyyətin tarixində ən qanlı səhifələrdən biridir. Ermənilərin "Böyük Ermənistan" xülyasının davam etdirilməsini ehtiva edən etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağdan azərbaycanlı türklərin didərgin salınmasına yönəlmiş bu qətliamda erməni silahlı birləşmələri mülki əhalini - qadınları, uşaqları, yaşlı insanları vəhşicəsinə qətlə yetirmiş, işgəncə verərək şəhid etmişlər. Məsum insanların gözləri oyulmuş, dəriləri soyulmuş, hamilə qadınların qarınları yarılaraq hələ doğulmamış körpələr süngülənmişdir. Bu müdafiəsiz, məsum insanların "günah"ları türk olmaları idi.

Belə vəhşi və insanlığa zidd qətliamı törədən ermənilər hansı üzlə qürurlu tarixə malik olan biz türkləri soyqırımı törətməkdə ittiham edirlər? Hələ bu azmış kimi, bizim içərimizdəki bəzi "üzdəniraq ziyalılar"ın erməniləri dəstəkləyərək, onlardan üzr istəmələri çox acı bir haldır. Türk millətinə qarşı qəflət içərisində olan bu qaragüruhun, görəsən, Xocalı qətliamı ilə bağlı ermənilərin üzr istəmələrini tələb edən açıqlamaları olacaqmı? Heç sanmıram, amma bir şeydən əminəm ki, bu cür anlamaz insanlar bir gün öz günahları içində boğulacaqlar. Onlar ömürlərinin sonuna qədər türk millətinin arasında bu günahla yaşamağa məhkumdurlar.

Xocalı qətliamını törədən ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, 1 milyondan çox Azərbaycan türkü məcburi köçkün və qaçqın kimi pərişan halda yaşamağa məcbur olmuşdur. Bu gün Ermənistanda bir nəfər də Azərbaycan türkü yaşamır, amma Azərbaycanda hələ də minlərlə erməni yaşamaqdadır. Bax, bu, türk millətinin nəcibliyinin və fərqliliyinin sübutudur. Ermənilərin Xocalıda törətdiyi qətliam birinci deyildir. Son bir əsrdə erməni quldurları Anadoluda və Azərbaycanda on minlərlə türkü vəhşicəsinə qətlə yetirmişlər.

Bu gün Ermənistanın bayrağında və gerbində bizim Ağrı dağının rəsmi vardır. Konstitusiyalarında bizim Şərqi Anadolu bölgəmizin Ermənistana aid olduğu yazılır. Ermənistan rəhbərliyi Türkiyə ilə diplomatik əlaqələr qurulduqdan, sərhədlər açıldıqdan sonra da soyqırımı, Türkiyənin təzminat ödəməsi və ərazi iddialarından əl çəkməyəcəklərini açıq şəkildə bəyan edirlər. Ermənistan sərhədlərimizi müəyyən edən müqavilələrin ləğvi üçün Rusiya və Avropadakı lobbiçilik fəaliyyətini davam etdirməkdədir. Son addım olaraq, Obama hökumətini Türkiyəni "soyqırımı" ilə suçlayan bir qətnamə qəbul etməyə məcbur etmək istəyirlər. Biz "bir millət, iki dövlət" dediyimiz Azərbaycanın işğal altındakı torpaqlarının azad olunması üçün BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qətnamələrinə məhəl qoymayan Ermənistanın bu qərarlara əməl etməsini təmin etməliyik. Xocalı qətliamını bütün dünyaya anladaraq, Ermənistanın insanlığa qarşı törətdiyi bu cinayət üçün cavab verməsini təmin etməliyik.

"Böyük Ermənistan" adlı ideyanın reallaşmasına çalışanlardan biri Zori Balayanın 1996-cı ildə çap etdirdiyi "Ruhumuzun canlanması" kitabında Xocalıda ermənilərin törətdikləri vəhşiliklər belə təsvir olunur: "Biz dəstə üzvü Xaçaturla qarət olunmuş evlərdən birinə girdiyimiz zaman əsgərlərimizin 13 yaşında bir türk uşağını pəncərəyə mismarladıqlarını gördük. Xaçatur uşağın qışqırmaması üçün anasının kəsilmiş döşünü onun ağzına basdı. Sonra mən türk uşağının qarnının, döşünün və başının dərisini çıxardım. Saatıma baxdım. Uşaq 7 dəqiqədən sonra qan itirməsi səbəbindən öldü. Sonra Xaçatur uşağın cəsədini doğradı və itlərə atdı. Axşam eyni şeyləri daha 3 türk uşağının da başına gətirdik".

Hörmətli millət vəkilləri! Mən bu insanlığa zidd qətlləri lənətləyirəm. Atatürk "Azərbaycanın kədəri bizim kədərimiz, Azərbaycanın sevinci bizim sevincimizdir" demişdir. Türkiyənin Azərbaycan siyasəti cümhuriyyət boyunca belə olmuşdur və bundan sonra da belə olacaqdır. Azərbaycanlı qardaşlarımızı incitməyə heç bir hökumətin nə haqqı, nə həddi, nə də səlahiyyəti vardır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycanlı qardaşlarımız bütün acılarını paylaşır, ortaq şəhidlərimizin xatirəsini rəhmətlə anırıq!

**Oqtay Bayramov**
**AzərTAc-ın xüsusi müxbiri**
**Ankara**

**Azərbaycan.-2009.-27 fevral.-S.2.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional